# ƏHALİ COĞRAFİYASI

İzahat

Əhali coğrafiyası fənni BDU-nun coğrafiya fakültəsində coğrafiya ixtisası üzrə təhsil alan bakalavrlara V semestrdə 60 saat (30 saat mühazirə, 30 saat məşğələ) həcmində tədris olunur. Hazırda əhali və onun coğrafi məsələlərinin öyrənilməsində diqqət böyük olduğu üçün bakalavr təhsil pilləsində tədrisi məqsədəuyğundur. Fənnin tədrisində məqsəd əhali coğrafiyasının elmi əsaslarının, demoqrafik proseslərin, irqlərin, etnik tərkibin, dinin, əmək ehtiyatlarının, əhalinin miqrasiyasının, urbanizasiyanın, kənd və şəhər məskunlaşmasını və dünyada yerləşməsinin öyrənilməsidir.

Mövzular üzrə saatların paylanması.

| **Sıra № -si** | **MÖVZULAR** | **Cəmi** | **Müh** | **Məş** |
|---|---|---|---|---|
| 1 | Əhali coğrafiyasının predmeti məqsədi, vəzifələri və digər elmlər sistemində tutduğu yer. | 4 | 2 | 2 |
| 2 | Əhalinin sayı və təkrar istehsalı. | 4 | 2 | 2 |
| 3 | Əhalinin cins, yaş strukturu və ailə tərkibi Demoqrafiya anlayışı və siyasət. | 4 | 2 | 2 |
| 4 | İrqlərin coğrafiyası. | 4 | 2 | 2 |
| 5 | Əhalinin etnik tərkibi. Xalqların təsnifatı. | 4 | 2 | 2 |
| 6 | Dinlərin coğrafiyası. | 4 | 2 | 2 |
| 7 | Əmək ehtiyatları və əhalinin məşğulluğu. | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| | Əhalinin sosial strukturu. | | | |
| 8 | Əhalinin miqrasiyası, növ-ləri və səbəbləri | 4 | 2 | 2 |
| 9 | Dünyanın müasir miqrasi-yasının coğrafi xüsusiy-yətləri. | 4 | 2 | 2 |
| 10 | Əhalinin sıxlığı və müasir yerləşməsi xüsusiyyətləri. | 4 | 2 | 2 |
| 11 | Məskunlaşmanın tipləri və formaları. | 4 | 2 | 2 |
| 12 | Şəhər yaşayış məskənlərinin coğrafiyası. Şəhərlərin iqti-sadi coğrafi mövqeyi. Tipo-logiyası və təsnifatı. | 4 | 2 | 2 |
| 13 | Urbanizasiya prosesləri və onun formaları. Şəhər aqlomerasiyası,onun forma-ları və inkişaf problemləri. | 4 | 2 | 2 |
| 14 | Qəsəbələr və onların inkişafı | 4 | 2 | 2 |
| 15 | Kənd əhalisi və onun yerləşməsi. Vahid məskun-laşma sistemi. (VMS) | 4 | 2 | 2 |
| | Cəmi | 60 | 30 | 30 |

## 1.Əhali coğrafiyasının predmeti, məqsəd ,vəzifələri və digər elmlər sistemində tutduğu yer.

Əhali coğrafiyasının predmeti və əsas sahələri Əhali coğrafiyası sosial coğrafiyanın tərkib hissəsi kimi. Əhali coğrafiyası elminin yaranması və inkişafı. Azərbaycanda əhalinin coğrafi öyrənilməsi.Əhali

nəzəriyyələri. Əhalinin coğrafi öyrənilməsinin mənbələri və metodları. Fənnin digər elmlərlə əlaqəsi və coğrafiya elmlər sistemində yeri. Əlaqəli elmlər: Antropologiya, etnologiya, demoqrafiya, sosiologiya, statistika, ekologiya, rekreasiya, tarix, insan ekologiyası, şəhərsalma, əmək iqtisadiyatı və onların əhali coğrafiyasının digər elmlər arasında əlaqələndirici rolu.

**2.Əhalinin sayı və təkrar istehsalı.**

Dünya əhalisinin sayının artması (dinamikası), bunun iqtisadi, sosial, ekoloji problemləri və ölkələr üzrə paylanması. Əhalinin təbii hərəkəti (təkrar istehsalı - təzələnməsi) və ona təsir edən sosial - iqtisadi, demoqrafik, təbii, dini psixoloji amillərin rolu. Azərbaycan Respublikasında əhalinin təbii hərəkəti və dinamikası.

Əhalinin təkrar istehsal tipləri. Müxtəlif tipli ölkələrdə əhalinin təbii hərəkəti və onun coğrafi fərqləri.

**3.Əhalinin cins, yaş strukturu və ailə tərkibi. Demoqrafiya anlayışı və siyasət.**

Əhalinin cins və yaş tərkibi. Əhalini cins və yaş tərkibini müəyyən edən amillər. Əhalinin cins və yaş tərkibindəki coğrafi fərqlər. Azərbaycan Respublikası əhalisinin cins və yaş tərkibi. Əhalinin tərkibinin proqnozlaşdırılması.

Demoqrafik şərait anlayışı və onun təbii artım tipindən fərqi. Demoqrafik davranış: nikah, reproduktiv, özünü mühavizə davranışları, demoqrafik şəraitin tipləri. Demoqrafik şəraitin regional xüsusiyyətləri.Demoqrafik partlayış.

Demoqrafik siyasət, "ailə planlaşdırılması" demoqrafik siyasətin məqsədi. İqtisadi,inzibati- hüquqi, əxlaqi psixoloji tədbirlər. Fəal və qeyri fəal siyasət.

Demoqrafik proseslərin idarə olunma imkanları. Demoqrafik siyasətin regional diferensiasiya problemləri.

## 4.İrqlərin coğrafiyası.

İrqlər və onların təsnifatı. İrqlərin formalaşmasında təbii şəraitin rolu. Əsas (Avropa-ağ, Monqol –sarı, Ekvatorial-Neqroid-qara) və keçid irqlər. Neqroid irqi. Neqroid irqi xüsusiyyətləri. Neqroid irqi 3 qrupa bölünür: zəncilər, neqrillər, buşmenlər. Avropoid irqi. İrqin xüsusiyyətləri. 3qupa bölünür: şimal, cənub və aralıq. Monqoloid irqi. İrqin xüsusiyyətləri. 3 qrupa bölünür: kontinental və Sakit okean monqoloidlər. Avstraloid irqi. İrqin xüsusiyyətləri və bolündüyü qruplar- avstraliya aborigenləri, papauslar, melaneziyalılar, veddoidlər, neqritoslar, aynlar və s.

## 5. Əhalinin etnik tərkibi. Xalqların təsnifatı.

İnsanların etnik birliyi və etnogenez anlayışı. Qəbilə, tayfa, xalq, millət, tarixi kateqoriyaları, onların ümumi və fərdi əlamətləri. Etnososial və etnik qruplar.

Etnik proseslər və onların növləri. Konsolidasiya və assimilyasiya proseslərinin gedişi və nəticələri. Milli siyasət. Dövlət quruculuğunda əhalinin milli tərkibinin nəzərə alınmasının əhəmiyyəti. Demoqrafik proseslərlə əhalinin milli tərkibi arasında əlaqə. Dünya əhalisinin milli tərkibinin dəyişməsinin proqnozu.

Xalqların təsnifatının prinsipləri. Coğrafi, linqvistik, say, təsərrüfat-mədəni təsnifatlar. Dil ailələri, dil qrupları və yarımqruplar. Dünya xalqlarının xəritəsi. Ayrı-ayrı materik və iri regionların etnoqrafik xəritəsinin xüsusiyyətləri.

Dünya xalqlarının etnolinqvinistik təsnifatının prinsipi. Əsas ailə və dil qruplarının coğrafiyası. Müxtəlif tip ölkələrdə etnik proseslər və etnik struktur. Azərbaycan

əhalisinin mili tərkibi. Müasir dünyada etnik proseslər və milli siyasət.

### 6. Dinlərin coğrafiyası.

Din və onun yaranması. Dünyanın başlıca dinlərinin coğrafiyası. Dünyəvi və yerli (regional) dinlər, dini ayınlər. Dinin cəmiyyətdə rolu. Azərbaycanda din siyasəti. Dinlər qəbilə(bütpərəst), məhəlli(milli), dünya dinlərinə bölünür. Dünya dinlərinə buddizm, xristianlıq, islam dinləri daxildir. Qəbilə dinləri- fetişizm, totemizm, əcdadlara sitayış, şamanizm. Məhəlli dinlər: hinduizm, sikhizm, konfusiçilik, sintoizm, iudaizm.

### 7. Əmək ehtiyatları və əhalinin məşğulluğu. Əhalinin sosial strukturu.

Əmək ehtiyatları anlayışı. İşlək əhali. İqtisadi fəal əhali. Əmək qabiliyyətli əhali. Müxtəlif inkişaf səviyyəli ölkələrdə əmək qabiliyyətli yaşın aşağı və yuxarı sərhədləri.

Məşğulluq və məşğul əhali. Müxtəlif əmək növləri və təsərrüfat sahələri üzrə əmək ehtiyatlarından istifadənin xüsusiyyətləri. Müxtəlif tipli ölkələrdə əmək ehtiyatlarının məşğulluq səviyyəsi, Əhalinin peşə tərkibi. Əhalinin əmək vərdişlərindəki coğrafi fərqlər. Beynəlxalq əmək bazarı. Qadın və kişi əməyindən istifadənin xüsusiyyətləri. İşsizlik problemləri və onun həlli yolları. Azərbaycanda əhalinin məşğulluğu.

Sosial struktur (sosial tərkib) anlayışı. Cəmiyyətin inkişafının müxtəlif dövrlərində sosial struktur. Sosial mobillik və sosial stratifikasiya. Müxtəlif tip ölkələrdə sosial struktur. Dünya birliyinə sosial sitrukturun 3 tipi məlumdur: a)Demokratik bazar cəmiyyəti modeli, b) Zəif inkişaf etmiş, lakin bazar iqtisadiyyatına əsaslanan

cəmiyyətə söykənən sosial struktur modeli, c) Keçmiş sosialist cəmiyyətlərinin təbəqələşməsi modeli

**8.Əhalinin miqrasiyası, növləri və səbəbləri**

Miqrasiya anlayışı. Miqrasiyanın növləri və formaları. Müxtəlif sosial-iqtisadi şəraitdə miqrasiyanın səbəbləri. Miqrasiyanın kəmiyyət göstəriciləri. Miqrasiyanın öyrənilməsi mənbələri. İqtisadi, sosial, demoqrafik inkişafda miqrasiyanın əhəmiyyəti. Etnik proseslərin və urbanizasiyanın inkişafında miqrasiyanın rolu. Dünyanın müasir məskunlaşması əhalinin miqrasiyasının məhsuludur. Klassik miqrasiya ölkələri. Miqrasiyanın yaratdığı problemlər. Əhalinin beynəlxalq miqrasiyasının əsas mərhələri və istiqaməti. Məcburi miqrasiya. Azərbaycan əhalisinin miqrasiyası.

**9. Dünyanın müasir miqrasiyasının coğrafi xüsusiyyətləri.**

Müasir miqrasiya axınları. Dünya əmək bazarının formalaşmasında miqrasiyanın rolu. “Beyin axını”. Qaçqınlar və məcburi köçkünlər problemi. Əsas immiqrasiya və emiqrasiya ölkələri və səbəbləri. Miqrasiya və demoqrafik partlayış. Miqrasiyanın proqnozlaşdırılması.

**10.Əhalinin sıxlığı və müasir yerləşməsi xüsusiyyətləri**.

Əhalinin sıxlığı anlayışı və onun göstəriciləri. Sıxlıq əmələ gətirən səbəblər. Əhalinin sıxlığına təsir göstərən amillər. Təsərrüfatın əmək tutumluluğu və əhalinin sıxlığı ilə əlaqəsi. Əhalinin müxtəlif sıxlığının iqtisadi və sosial əhəmiyyəti. Əhali sıxlığının nisbi əhəmiyyət daşıması və onun əməyin texniki təchizatı, ərazinin təsərrüfat

məqsədləri üçün istifadəsinin xarakteri və nəqliyyat şəbəkəsinin inkişafından asılılığı.

Yer kürəsində əhalinin müasir dövrdə yerləşməsi. Dünya əhalisinin yüksəklik qurşaqları, dəniz və okeanlardan uzaqda olmasına görə yerləşməsi. Əhalinin sıxlığı və miqrasiya. Dünya əhalisinin sıxlığı xəritəsinin icmalı.

Əhalinin ən sıx məskunlaşdığı areallar. Məskunlaşmamış ərazilər və depopulyasiya. Əhalinin sıxlığında olan coğrafi fərqlərin təsərrüfatın xüsusiyyətləri, ərazinin mənimsənilməsi və məskunlaşmasının tarixi, təbii şəraitin və təbii ehtiyatların xarakteri ilə əlaqəsi. Azərbaycan Respublikası əhalisinin sıxlığı və onun xüsusiyyətləri.

## 11. Məskunlaşmanın tipləri və formaları.

Məskunlaşma konkret ictimai-tarixi və təbii şərait daxilində cəmiyyətin ərazi təşkili formasıdır. Məskunlaşmanın öyrənilməsinin elmi və əməli əhəmiyyəti. Məskunlaşma nəzəriyyələri. Məskunlaşmanın elementləri: ev, məhəllə, təsərrüfat tikililəri, sosial infrastruktura, yaşayış məntəqələri, məskunlaşma arealları və rayonları. Yaşayış məntəqələrinin ərazi sistemləri. Məskunlaşmanın təsərrüfatdan asılılığı. Əhalinin iqtisadi və mədəni həyat şəraitinin məskunlaşmadan asılılığı. Təbii şəraitin məskunlaşmaya təsiri. Məskunlaşmanın əsas tipləri və formaları, onların yaranmasının sosial - iqtisadi zəminləri. Yaşayış məntəqələrinin kəndlərə, şəhərlərə aid edilməsi qaydaları və buradakı coğrafi fərqlər.

## 12. Şəhər yaşayış məskənlərinin coğrafiyası. Şəhərlərin iqtisadi coğrafi mövqeyi.Tipologiyası və təsnifatı

Şəhər anlayışı. Şəhər əmələgətirən amillər.Şəhərlər məskunlaşmanın tərəqqi forması kimi. Şəhər məskunlaşmanın dayaq məntəqəsidir. Şəhərlərin iqtisadi-coğrafi mövqeyi. Şəhər yaşayış məskənlərinin tipologiyası və təsnifatı. Şəhərlərin daşıdığı funksiyalar.

İqtisadi coğrafi mövqe - şəhərlərin coğrafi nəzəriyyəsinin fundamental anlayışıdır. Ərazi sistemlərdə (ölkə, rayon) şəhər.

Şəhərin iqtisadi coğrafi mövqeyi şəhərin inkişaf perspektivinin proqnozu və şəhər ənənələrinin təhlili üçün açardır. İqtisadi coğrafi mövqeyin kateqoriyaları dialektik və ziddiyyətlidir.

İqtisadi coğrafi mövqeyin əsas xüsusiyyətləri: tarixilik; unikallıq (nadirlik); fərdilik; şəhərin inkişafına iqtisadi coğrafi mövqeyin təsiri və İCM - in əlverişli mövqeyində şəhərin fəal rolu; İCM - in inteqral xarakteri (İCM - in bütün komponentlərinin hərəkəti) İCM anlayışının məntiqi parçalanması zərurəti (yəni onun ayrı - ayrı komponentlərinin qiymətləndirilməsi); makro, mezo və mikro mövqe kateqoriyaları və şəhərlərin əlverişli inkişafında onların müxtəlif təsir dərəcələri; Şəhərin İCM - nin inkişafına təsir göstərən iqtisadi, texnoloji, mühəndis və digər əlavə amillər. İCM - in kəmiyyət göstəricisi problemləri (keyfiyyət qiymətləndirilməsi ilə yanaşı), iqtisadi coğrafiyanın həll olunmamış problemləri.

## 13. Urbanizasiya prosesləri və onun formaları. Şəhər aqlomerasiyası, onun formaları və inkişaf problemləri

Urbanizasiya və suburbanizasiya anlayışları və onların təzahürləri. Urbanizasiyanın əsasını təşkil edən şəhər yaşayış məntəqələrinin tarixən yaranması və inkişafı. Şəhərlər ictimai - iqtisadi və tarixi kateqoriyadır. Müxtəlif ictimai formasiyaların şəhərləri. Urbanizasiyanın göstəriciləri. Urbanizasiyanın inkişafı və onun cəmiyyətin inkişafında rolu. Urbanizasiyanın formaları. Ayrı-ayrı ölkələrin və regionların urbanizasiyalaşmasındakı fərqlər və onların səbəbləri. Azərbaycan Respublikasında urbanizasiyanın inkişafı. Müasir urbanizasiya prosesləri və onun xarakteri. Urbanizasiyanın inkişafında elmi texniki tərəqqinin rolu.

Şəhərlərin tipologiyası və təsnifatının prinsipləri. Şəhərlərin əhalisinin sayına, funksiyasına, mənşəyinə (genezisinə), planlaşdırılma quruluşuna görə təsnifatı. Şəhər əmələgətirici və şəhərə xidmətedici sahələr. Şəhər və coğrafi mühit. Şəhər məskunlaşma formaları. Qrup və aqlomerasiya məskunlaşma formaları. Aqlomerasiyalarda mərkəzlə şəhər ətrafı arasında kəfkirvari əmək gedişləri. Dünyanın ən iri şəhərləri, şəhər aqlomerasiyaları, onların tipləri. Meqapolislər və onların inkişaf etməsi. Şəhərlərin simasındakı mövcud coğrafi fərqlər və onların səbəbləri. Müxtəlif tip şəhərlərin inkişaf problemləri.

Müasir aqlomerasiyaların əsas xüsusiyyətləri. Şəhər əhalisinin artması və dünya əhalisində onun payı.

Böyük şəhərlərin qabaqlayıcı inkişafı. İstehsalın təmərküzləşməsinin güclənməsi və əhalinin fərqliliyi.

Aqlomerasiyaların formalaşması. Şəhər tikililərin ərazisinin genişlənməsi. Böyük şəhərlərdə ziddiyyətlərin gərginləşməsi. Böyük şəhərlərin və aqlomerasiyaların çatışmamazlıqları: nəqliyyat sistemlərinin

mürəkkəbləşməsi, mühəndis qurğuların bahalanması, təbii mühitin çirklənməsi. Böyük şəhərlərin və aqlomerasiyaların sosial və iqtisadi üstünlükləri.

**14. Qəsəbələr və onların inkişafı.**

Qəsəbələr məskunlaşma sisteminin tərkib hissəsidir və ölkənin sosial - iqtisadi inkişafında mühüm rol oynayır. Qəsəbələrin funksiyası və tarixi dövrlərdə inkişaf xüsusiyyətləri. Qəsəbələrin funksional tipləri və inkişafı.

**15. Kənd əhalisi və kənd əhalisinin məskunlaşması. Vahid məskunlaşma sistemi (VMS).**

Kənd əhalisi və kənd yeri anlayışları. Dünyada və Azərbaycan Respublikasında kənd əhalisinin dinamikası. Kənd yaşayış məntəqələrinin tipləri. Kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı qarışıq tipli kənd yaşayış məntəqələri (məskənləri). Daimi, mövsümü, müvəqqəti və səyyar kənd yaşayış məntəqələri. Kənd yaşayış məntəqələrinin nisbətindəki coğrafi fərqlər.

Kənd əhalisinin məskunlaşmasının zona fərqləri. Kənd əhalisinin məskunlaşmasının xarakterinin istehsal üsulundan və təbii şəraitdən asılılığı. Kənd təsərrüfatı məskunlaşmasının istehsal tipləri. Onların ictimai şəraitdən, təsərrüfatın ixtisaslaşmasından, kənd təsərrüfatının intensivliyindən, yararlı torpaqlardan istifadə formalarından, kənd təsərrüfatı istehsalının ərazi təşkili formalarından asılılığı. Kənd əhalisinin məskunlaşması və coğrafi mühit. Müxtəlif tipli ölkələrdə və Azərbaycan Respublikasında kənd əhalisinin məskunlaşması. Əhalinin məskunlaşmasının xəritələşdirilməsi. Kiçik və iri miqyaslı əhali xəritələrinin tərtibi.

Vahid məskunlaşma sistemi anlayışı. VMS - nin iqtisadi - sosial coğrafiyada yeri. VMS - nin müxtəlif tarixi dövrlərdə inkişaf xüsusiyyətləri, kəmiyyət və keyfiyyət dəyişiklikləri. Əhalinin məskunlaşmasında və demoqrafik inkişafında sosial - iqtisadi amilin inkişafının təsiri.

**Laboratoriya məşğələlərinin təxmini mövzuları.**

1. Əhalinin müxtəlif dövrlərdə keçirilmiş siyahıyaalma materiallarının öyrənilməsi.
2. Müxtəlif tip ölkələr, o cümlədən Azərbaycan Respublikası və bütövlükdə dünya üzrə əhalinin ümumi sayının dinamikası, qrafikinin qurulması və müqayisəli təhlili.
3. Müxtəlif təkrar istehsal tipinə malik olan ölkələrin əhalisinin cins - yaş piramidalarının qurulmasının müqayisəli təhlili.
4. Ayrı-ayrı ölkələrin, o cümlədən Azərbaycan Respublikası əhalisinin milli tərkibinin dəyişməsinin təhlili (siyahıyaalma materialları əsasında)
5. Dünya xalqları, Avropa xalqları, Asiya xalqları, Dünyanın insan irqləri, Dinlərin coğrafiyası xəritələrilərinin icmalı.
6. Müxtəlif tip ölkələrdə şəhər və kənd əhalisinin artımı qrafikinin tərtibi və müqayisəli təhlili.
7. Mühüm əhəmiyyətli şəhərlərin əhalisinin artım qrafiklərinin tərtibi
8. Dünyanın iri regionları və materikləri üzrə iri şəhərlərin xəritəsinin tərtibi.
9. Dünya əhalisinin sıxlığı xəritəsinin icmalı

10 Müxtəlif tip ölkələrdə əhalinin həyat səviyyəsi və həyat tərzinin təhlili

10. Azərbaycan Respublikası əhalisinin qısa kompleks səviyyəsinin tərkibi və onun əhali xəritəsinin tərtibi.

## Ə d ə b i y y a t

### Əsas


1. Борисов В.А. Демография. Учебник для вузов. М. NOTABENE 1999
2. Azərbaycanın sosial və iqtisadi coğrafiyası. Prof. V. Ə. Əfəndiyevin redaktəsi ilə. Bakı. 2010
3. Ковалев С. А., Ковальская Н. Я. География населения СССР. М. 1980
4. Слука А.Е. Слука Н.А. География населения с основами демографии. Учебное пособие М. 2001
5. Лаппо Г. М. География городов М. 1997
6. Əfəndiyev V.Ə. Urbanizasiya və Aəzərbaycanın şəhər yaşayış məskənləri. Bakı. 2002
7. Эфендиев В. А., Нагиев С. К. География населения. Баку. 2005
8. Əfəndiyev V. Ə., Nağıyev S. Q. Əhali coğrafiyası. Bakı. 2006
9. Əfəndiyev V.Ə., Qasımova F.E. Azərbaycanda qəsəbə. Bakı 2013.
10. Перцик Е. Н. Города мира. География мировой урбанизации. М. 1999 – 2010.
11. Перцик Е.М. Геоурбанистика. М.Академия .2009
12. Шувалов Е.Л. География населения М .1985


### Əlavə


1. Брук С. И. Населения мира Этнодемография. Справочник М. 1998
2. Dəmirqayayev Ş.Q., Mehrəliyev E.Q Azərbaycan Respublikasının əhali xəritəsi. Bakı. 1995
3. Əfəndiyev V.Ə, Dəmirqayayev Ş. Q. Azərbaycan Respublikası şəhərlərinin inkişafının coğrafi məsələləri. Bakı 1995.
4. Ковалев.С. А. Сельское расселение. 1963
5. Хорев Б. С. Проблемы городов. М. 1975